# Xalqımızın ruhunun ifadəsi

**"Sərin bir payız səhəri idi. Səhər də demək olmazdı. Çünki hələ tamam işıqlanmamış, hava açılmamışdı. Bu alaqaranlıqda şəhərə doğru gedən əyri-üyrü palçıqlı yol camaatla dolu idi. Adamlar şəhərə həftəbazarına gedirdilər... Sona da bazara gedənlərin arasında idi. O, ömründə birinci dəfə idi ki, həftəbazarına gedirdi. "Yusif-Züleyxa" xalçasını satmağa aparırdı. Bu xalçanı Sona özü toxumuşdu, niyyəti də xalçanı böyük oğlu Mərdanın toyunda gəlin otağının divarına vurmaq idi. Sona illər boyu bu arzunu ürəyində bəsləmiş, o xoşbəxt günü səbirsizliklə gözləmişdi. Amma hər şey dəyişdi. Sonanın əri öldü, uşaqları yetim qaldı. Ehtiyac qadını sıxdı. Sona da "Yusif-Züleyxa"sını qoltuğuna vurub bazara aparmalı oldu...".**

Yəqin ki, Mir Cəlalın "Bir gəncin manifesti" povestindən götürülmüş bu parçanı xatırladınız. Sonanın başına gələnlər: "Axı, niyə öz əllərimlə toxuduğum, min bir arzu ilə saxladığım xalça öz oğluma yox, bu çağırılmamış qonağa qismət olsun?", - deyib daxilən üsyan etdiyi, "İtə ataram, yada satmaram!" - deyib ingilisin arzusunu gözündə qoyduğu da yadınıza düşdü.

Bu epizodu xatırlatmaqda məqsəd heç də həmin əsər haqqında nəsə bir fikir söyləmək deyil. Azərbaycan xalçasından, gözəlliyi ilə tək bir ingilisi yox, bütün dünyanı heyran qoyan bu mədəniyyət nümunəsinin keçmiş şöhrətindən, bu şöhrəti qaytarmaq üçün çalışanlardan söhbət açmaq istəyirik. Axı 5 may Xalçaçı Günüdür. Əsrlərdən bəri xalqımızın tarixini, onun uğurlarını, uğursuzluqlarını naxışlarda, ilmələrdə dastanlaşdıran nənələrimizin bayramıdır. Mənim üçün Azərbaycan xalçaçısı elə Sonanın özü kimi, o qeyrətdə, o yüksəklikdədir...

Son vaxtlar UNESCO-nun Qeyri-Maddi-Mədəni İrs siyahısına salınan milli sərvətlərimizdən böyük qürurla danışırıq. Sevinirik ki, bu siyahıya Azərbaycan xalçası da daxildir. Belə ki, UNESCO-nun Qeyri-Maddi-Mədəni İrsin qorunması üzrə hökumətlərarası Komitəsinin 2010-cu il noyabrın 16-da keçirilən V sessiyasında Azərbaycan xalçası dünya mədəni irsinin siyahısına salınmışdır.

Xalçaçılıq Azərbaycan xalq-tətbiqi sənətinin bir qolu kimi xalqın milli mədəniyyəti tarixində özünəməxsus yer tutur. Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən (e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərində) məşğul olmuşlar. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış gildən düzəldilmiş at fiqurunun (e.ə. II minillik) üzərində gül-çiçək təsvirləri ilə bəzədilmiş çul rəsmi, Urmiya gölü yaxınlığındakı Həsənli təpəsindən aşkar edilmiş qızıl camın (e.ə. I minillik) səthində üstünə çul salınmış şir təsviri və başqa tapıntılar Azərbaycanda xalça sənətinin nə qədər qədim tarixə malik olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən I-III əsrlərə aid katakomba qəbirlərindən palaz və xalça qalıqları aşkar edilmişdir.

Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Sasanilər dövründə (III-VII əsrlər) Azərbaycanda xalça sənəti daha da inkişaf etmiş, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxunmuşdur. Qızıl-gümüş saplarla toxunan və daş-qaşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Orta əsrlərdə qızıl-gümüş saplardan toxunan xovsuz xalçaların əsas istehsal mərkəzləri Təbriz, Şamaxı və Bərdə şəhərləri idi. Baha başa gəldiyindən, əsasən feodallar üçün toxunulan bu cür xalçalar "zərbaf" adlanırdı.

XIII-XIV əsrlərdə Azərbaycandan xarici ölkələrə çoxlu xalça və xalça məmulatları ixrac edilirdi. İncə ornamentləri, zərif və nəfis naxışları ilə diqqəti cəlb edən bu xalçalar məşhur Avropa rəssamlarının əsərlərində, miniatürlərində də öz əksini tapır. Azərbaycan xalçaları öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz olur və o sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki cəhətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə bölünür.

Təbriz xalçaçılıq məktəbinin şah əsəri, ornamental xalçaların ən gözəl nümunəsi Təbrizdə toxunmuş "Ləçəkturunc" kompozisiyalı məşhur "Şeyx Səfi" xalısı 1539-cu ildə toxunub, ölçüsü 56,12 kvadratmetrdir. Hazırda o, Londonun "Viktoriya və Albert" muzeyində saxlanılır.

Xalça sənətinin digər bir qolu peşəkar rəssamlar tərəfindən davam və inkişaf etdirilir. Onun elm sahəsi kimi öyrənilməsi və professional müasir rəssamların yaradıcılığında inkişafı Azərbaycanın Xalq rəssamı Lətif Kərimovun adı ilə bağlıdır.

Lətif Kərimov uzun illər Azərbaycan xalçalarını tədqiq etmiş, Azərbaycan dekorativ sənətini yeni ornamentlərlə zənginləşdirmiş, ənənəvi bəzək elementləri əsasında yeni dekorativ motivlər yaratmışdır. Peşəkar rəssamların yaratdığı ornamental və portret xalçalar ornament elementlərinin uyarlılığı, kompozisiya bitkinliyi, rəsmlərinin zərifliyi, ifadəliliyi, zəngin koloritinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. Bu sahədə xalçaçı rəssam Kamil Əliyevin yaratdığı sənət nümunələri də böyük əhəmiyyət kəsb edir. Belə ki, onun dünyanın tanınmış şəxsiyyətlərinə həsr etdiyi xalçalar indi müxtəlif ölkələrin tarix muzeylərində, yaxud şəxsi kolleksiyalarda qorunub saxlanılmaqdadır.

XVIII əsrin II yarısında Azərbaycanın şimalı kiçik feodal vahidlərə - Şəki, Bakı, Quba, Qarabağ, İrəvan, Gəncə, Naxçıvan, Şirvan xanlıqlarına bölünməyə başladı və həmin dövrlərdə xalça istehsalı da genişləndi. Artıq hər xanlığın özünün xalçaçılıq karxanası vardı. Xalçaçılıq sənətinin bu istiqamətdə inkişafı xalçaçılıq məktəblərinin formalaşmasına da zəmin yaratdı.

Qarabağ xalça məktəbi iki regionda -dağlıq və aran zonalarında inkişaf etmişdir. Onu da qeyd edək ki, öz bədii quruluşu, texnoloyi xüsusiyyətləri, rəng həlli baxımından Zəngəzur və Naxçıvan xalça istehsalı mərkəzləri də Qarabağ xalça məktəbinə daxildir. "Aran", "Balıq", "Buynuz", "Qarabağ", "Qoca", "Ləmbərani", "Ləmpə", "Xanqərvənd" və s. çeşni xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Şuşa şəhərinin əsasını qoydu. Şəhər ilk vaxtlar Pənahabad adlandırıldı və uzun illər Qarabağ xanlığının paytaxtı oldu. Qarabağ xalçaçılıq məktəbi də elə həmin əsrdə Şuşada cəmlənmişdi. Qarabağ xalçalarının rəng-boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir.

Dünya muzeylərinin bəzəyi sayılan sənət əsərlərinin arasında xalça nümunələri əsas yer tutur. Məsələn, tarix etibarilə ən qədim xalçalarımızdan biri: "Əjdahalı" adlı Qazax xalçası sayılır. XV yüzilliyə aid edilən bu xalı Berlin İncəsənət Muzeyinin Şərq bölməsində saxlanılır. Sənət baxımından önəmli xalçalarımızdan biri də Münhen şəhərindəki xalı salonunda nümayiş etdirilən kiçik bir xalıdır. Xalçanın yanındakı etiketdə onun 1600-cü ildə Qarabağda toxunduğu qeyd olunmuşdur.

Almaniyanın Düsseldorf şəhər muzeyində saxlanılan 1800-cü ilə aid Suraxanı xalısını da xüsusi qeyd etmək lazımdır.

Macarıstanın Budapeşt şəhərində Dekorativ Sənətlər Muzeyində nümayiş olunan XVIII əsrə aid kiçik bir Qazax xalçası da diqqəti cəlb edir. "Qoca" adı ilə geniş şöhrət tapmış Qarabağ xalçası da diqqətçəkən nümunələrdəndir. Keçmişdə böyük salonları bəzəyən bu tipli al-əlvan xalçalara xalq arasında "Xan Qarabağ xalısı" deyilirdi.

Xalça könül açan, gözoxşayan sənət nümunəsidir. Dünyanın bütün rəngləri, bütün gözəllikləri toplaşır sanki burada. Bəlkə də rənglərin ilmələrə, naxışlara ötürülən sevgi ilə sintezidir bu hissi, bu duyğunu yaradan. Kim bilir bəlkə hana arxasında hər ilməsini, naxışını vuran analarımızın, nənələrimizin etdiyi zümzümədən, dodaqaltı söylədiyi bayatılardan süzülüb gəlir bu sevgi, bu həzinlik, bu gözəllik, barmaqları hər toxunduqda kiçik bir möcüzə yaradır. Xalı adi sənət əsəri deyil, bir xalqın ruhunun, fəlsəfəsinin, dünyagörüşünün, düşüncələrinin ifadəsidir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 5 may.- S.13.